# Uşaqların məktəbəqədər hazırlığında nələrə diqqət etməli

Hər bir valideynin ümdə arzusu övladına mükəmməl təhsil verməkdir. Övladlarının dünyaya göz açdıqları andan onların təlim-tərbiyəsi ilə məşğul olmaq valideynin əsas vəzifələrindən biri olur. İllər quş kimi uçur, biz isə onların bilik və bacarıqlarının artması üçün əlimizdən gələni əsirgəmir, məktəbə gedəcək günü səbirsizliklə gözləyirik. Məktəb illərində müvəffəqiyyətlə təhsil almaq üçün mütləqdir ki, möhkəm təməl qoyulsun. Bəzən bu təməlin qoyulmasında, uşaqların məktəbəqədər hazırlığında elə səhvlərə yol verilir ki, bu səhvlər təhsilin növbəti pillələrində onlar üçün böyük problemlər yaradır. Bu problemlərlə rastlaşmamaq üçün diqqət edilməsi gərəkən məsələlərə nəzər salaq. Yəqin, mənimlə razılaşarsınız ki, informasiya bolluğunun yaşandığı bir vaxtda uşaqların məktəbə hazırlıq səviyyəsinə qoyulan tələblər də çox yüksəkdir. Müasir dövrdə uşaqların məktəbə hazırlanmasında müxtəlif yollardan istifadə edilir. Məktəbəqədər hazırlıq kursları, bağçalar, uşaq yaradıcılıq mərkəzləri, müxtəlif yönlü dərnəkləri bunlara nümunə göstərmək olar. Bəzən valideynlər övladları ilə özləri müstəqil məşğul olmaq istəyirlər. Bəs bu zaman hansı məqamlara diqqət etmək lazımdır?



## Sosial yetkinlik

** Qaydalara əməl etmək*

Hər bir valideyn çalışmalıdır ki, övladı ailədaxili qaydaları anlasın və onlara riayət etsin. Vaxtında yatıb, vaxtında oyanmağı, əşyaları istifadə etdikdən sonra toplamağı, gün ərzində neçə saat televizora baxa biləcəyini, oyun və dərs saatlarını ayırmağı bacarmalıdır. Belə olduqda uşaq məktəb qaydalarına da asanlıqla riayət edəcək, nizam-intizamlı bir şagird olacaq. Nümunəvi davranış isə qazanılacaq nailiyyətlərin əsasını təşkil edir.

** Ünsiyyət qurmaq bacarığının inkişafı*

Başqaları ilə ünsiyyət qurmaq, müxtəlif şəraitə tez bir zamanda uyğunlaşmaq üçün məktəbəqədər təhsil ocaqlarının rolu böyükdür. Uşaq kollektivdə inkişaf edir, özündən başqa digər fərdlərin də olduğunu anlayır. Bölüşməyi, yardım etməyi, bir-birinə qarşı hörmətlə yanaşmağı, dinləməyi, əməkdaşlıq etməyi öyrənir. Bu kimi bacarıqları özündə inkişaf etdirən şagird gələcək sinif yoldaşları ilə də asanlıqla münasibət qura biləcək, yoldaşlarının, dostlarının sayı artacaq, qrup işləri zamanı rahatlıqla əməkdaşlıq edəcək.

## Emosional yetkinlik

** Motivasiya etmək, həvəsləndirmək*

Valideynlər övladlarına müraciət edərək, "Məktəbə yalnız beş almaq üçün gedirlər", "Bax, zəif qiymət alan uşaqlarla heç kim dost olmaq istəmir" kimi ifadələrlə heç özləri də bilmədən övladlarına yanlış motivasiya verirlər, uşaqlarda məktəb, tədris prosesi haqqında yanlış təsəvvür yaradırlar. Bunun la da uşaqda tədris prosesinə qarşı maraq əvəzinə, qorxu hissi formalaşır. Unutmayaq ki, şagird məktəbə yüksək qiymət almaq həvəsi ilə yox, bilik qazanmaq, öyrənmək həvəsi ilə getməlidir. Təhsilə maraq oyatmaq üçün uşaq inkişaf mərkəzlərində, dram, rəsm, rəqs dərnəklərində, müxtəlif yönlü sərgilərdə, uşaq tamaşalarında iştirak etmək, muzeylərə, təbiət qoynuna səyahət faydalı olar. Bu hallar uşaqda dünyagörüşünün artmasına, ətraf aləmlə tanışlığa kömək edir, onlarda qavrama və ümumi bilik qazanmaq, mədəni, estetik, yaradıcı yanaşma bacarığını inkişaf etdirir.

** Özünəinamın yaranması*

Hər bir uğurun, müvəffəqiyyətin özülündə özünəgüvən, özünəinam dayanır. Əslində uşağın qarşısında qoyulan tapşırıqlar sadədən mürəkkəbə prinsipi əsasında qurulmalıdır. Uşaq yerinə yetirə biləcəyi tapşırıqlar üzərində çalışarkən zövq alır, məmnuniyyət hissi keçirir və özünəgüvəni artır. Növbəti, nisbətən çətin tapşırıqlar onu artıq qorxutmur. Uğurla yerinə yetirilmiş hər tapşırıqdan sonra "Sən çox ağıllısan", "Sən bacarıqlısan", "Afərin, çox çalışırsan", "Daha çətinlərini də bacararsan" kimi ifadələrlə ruh yüksəkliyi yaratmaq, yeni nailiyyətlər üçün stimul, həvəs vermək mütləqdir.

** Nitqin inkişafı*

Azyaşlı uşaqların sual vermək həvəsi hamıya bəllidir. Bəzən ardı-arası kəsilməyən suallar böyükləri narazı salır, bu suallardan canlarını qurtarmağa çalışırlar. Halbuki, uşaqların hər bir sualını səbrlə, təmkinlə cavablandırmaqla, ətraflı məlumat verməklə onlarda fikrini dəqiq və rabitəli şəkildə çatdırmaq bacarığının formalaşmasına kömək edirik.

Əbəs yerə nənələrimiz bizlərə rəngarəng nağıllar danışmayıblar ki?! Övladlarımızda kiçik yaşlarında mütaliəyə həvəs yaratmalıyıq. Mütaliə edərkən çalışmalıyıq ki, sözləri düzgün, səlis tələffüz edək. Bu zaman uşaqlarda dinləmə və anlama vərdişlərini, düzgün tələffüzetmə və danışma bacarığını inkişaf etdirmiş oları. Onların söz ehtiyatının zənginləşməsinə, fikirlərini ardıcıl, sərbəst, rabitəli şəkildə ifadə etməsinə zəmin yaradarıq.

## Fiziki inkişaf

Məktəbəqədər təhsildə uşağın fiziki inkişafına xüsusi diqqət ayırmaq vacibdir. Təəssüf ki, bəzən valideynlər övladlarının artıq hərfləri tanımaları, rəqəmləri hesablaya bilmələri ilə kifayətlənirlər. Dərs prosesində aydın olur ki, şagirddə heç bir motorika bacarığı inkişaf etdirilməyib. Kəsib yapışdırmaq, gil ilə işləmək, qayçı, fırça, xətkeş və başqa ləvazimatlardan istifadə etməkdə çətinlik çəkir. Qeyd etmək lazımdır ki, sadaladığımız bu bacarıqlar nəzəri biliklərin daha tez qavranılmasına, mənimsənilməsinə yardım edir. Müxtəlif yönlü uşaq yaradıcılıq mərkəzlərində, dərnəklərdə iştirak etmək bu problemin həllində sizə yardımçı ola bilər. Eyni zamanda, motorika bacarığının inkişafına kömək edəcək dərs vəsaitlərindən də istifadə etmək məqsədəuyğundur.

Övladlarımızın məktəbə düzgün hazırlığı onların gələcək nailiyyətləri, müvəffəqiyyətləridir.

**Ülkər NURULLAYEVA,**
*Bakı Oksford Məktəbinin müəllimi*